# Səmərəli tədbirlər

**Daşkəsən rayonu Azərbaycanın dilbər guşələrindən biri olaraq, öz gözəlliyi ilə Balakəndən, Zaqataladan, Qaxdan, Şəkidən, Oğuzdan, Qəbələdən, Qazaxdan, Masallıdan, Astaradan heç də geri qalmır. Allah-təalanın Azərbaycana bəxş etdiyi bol sulu soyuq bulaqlar, zəngin flora və faunası Daşkəsəni daha da məşhurlaşdırıb.**

**Son illər rayonun mədəni həyatında baş verən dəyişikliklər, mədəniyyətimizin inkişafı və təbliği istiqamətində gerçəkləşdirilən layihələr xüsusilə diqqət çəkir.**

Daşkəsənli gənclər müxtəlif müsabiqə və festivallarda həmişə uğurla çıxış etmişlər. Rayonda incəsənətin bütün növlərinə, o cümlədən rəssamlığa böyük maraq hiss olunur. Bunu əyani misallarla oxucuların diqqətinə verə bilərik.

"Bakı İslam Mədəniyyətinin paytaxtı-2009" ili münasibəti ilə təşkil olunmuş "Həvəskar rəssamların və xalq tətbiqi sənəti ustalarının işlərində dəyərlər" müsabiqəsində İlahə Məmmədova fəxri fərmanla təltif edilmişdir. Daşkəsən rayonunda uşaqlarla bağlı Azərbaycan Respublikası Prezidentinin sərəncamından irəli gələn bir çox tədbirlər həyata keçirilmişdir.

"Elmlə təkamül birgə addımlayır" mövzusunda tematik gecə, " Qoy həmişə günəş olsun" şüarı altında disput, incəsənətin bütün növlərinə aid müsabiqələr, 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibəti ilə səhnəcik və konsertlər rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır.

"Gənc ailə" proqramının həyata keçirilməsinə bu illər ərzində hər zaman ciddi fikir verilmişdir. Bu proqramın həyata keçirilməsi istiqamətində Gənclər və İdman idarəsi ilə birlikdə "Dəyirmi masa" keçirilmiş, 15 may- Beynəlxalq Ailə Günü təntənəli şəkildə qeyd edilmişdir. Ailə münasibətlərini özündə əks etdirən müxtəlif tamaşalar, filmlərdən parçalar göstərilmiş, uzunömürlü ailələrdən, ailənin qorunması sirlərindən bəhs edən mühazirələr gənc ailələr tərəfindən diqqətlə dinlənilmişdir.

Bütün bunlarla yanaşı Daşkəsən rayonunda Beynəlxalq ana dili gününə həsr olunmuş silsilə tədbirlər həyata keçirilmişdir. Bununla bağlı kitabxanalarda bədii-qiraət müsabiqəsi, məktəblərdə "Mənim ana dilim" mövzusunda inşa yazı müsabiqəsi keçirilmiş, fərqlənən şagirdlər tərifnamələrlə təltif edilmişdir. Daşkəsən Rayon Mədəniyyət və Turizm Şöbəsində dövlət başçısı tərəfindən həyata vəsiqə alan proqram və sərəncamları yerinə yetirmək istiqamətində hər zaman gərgin iş aparılır, "2009-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişafı Dövlət Proqramı" nın həyata keçirilməsi ilə əlaqədar yerli camaat və qaçqın əhali arasında söhbətlər aparılmış, təkliflər qəbul edilmişdir.

Daşkəsən rayonunun mədəniyyəti, turizm potensialı, maddi-mədəni abidələri haqqında yerli "Daşkəsən" qəzetində, "Mədəni-maarif" jurnalında, "Mədəniyyət" qəzetində müvafiq məqalələr verilmiş, "İctimai", "Lider", "Xəzər", "Az.Tv", "ATV" televiziya kanallarında verilişlər hazırlanmışdır. Bunlarla bahəm "İcimai" televiziya kanalı tərəfindən "Dəli Alı" haqqında televiziya filminin çəkilməsinə köməklik göstərilmişdir.

2006-cı ildən rayonda ulu öndərimiz Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkı istifadəyə verilmişdir. Rayonda təşkil olunan mədəni-kütləvi tədbirlərin çoxu bu parkda həyata keçirilir. Park həm daşkəsənlilərin, həm də müxtəlif yerlərdən rayona qonaq gələnlərin istirahət məkanına çevrilmişdir.

**Daşkəsəndə həyata keçirilən tədbirlərin təşkilində Daşkəsən Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Elçin Qurbanovun da əməyi danılmazdır. Arzu edirik ki, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimovun rəhbərliyi ilə bu diyar daha da inkişaf etsin və gözəlləşsin. Biz də öz növbəmzdə bu gözəlliyi vəsf edək.**

**● Elmira HƏSƏNQIZI**